Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği

**Vahid dövlətçilik ideologiyasına çevrilən azərbaycançılıq xalqımızı birləşdirən bir məfkurədir. Tariximizin, milli düşüncəmizin dərin qatlarından süzülüb gələn bu qutsal irs günümüzü aydınladan, dünənimizi yaddaşlara hörən, sabahımızı ümidlə dolduran bir məfhumdur.**

# Azərbaycançılıq və tarixi mənəvi dəyərlərimiz - Qərbi azərbaycanlı alim Kövsər Tarverdiyeva...

Azərbaycançılıq ideyası yeni deyil, o zaman-zaman cücərtilər verib, öz kökünü, mayasını qoruyub saxlayıb. Hətta Sovet dövründə də Azərbaycançılıq olub, o ayrı-ayrı şəxsiyyətlərimizin, elm, mədəniyyət, dövlət və ictimai xadimlərimizin simasında, əsərlərində yaşayıb. Bəlkə onlar özləri də hiss etməyiblər ki, düşüncələrində, əsərlərində belə dərin bir irs yaşadırlar. Bu gün Ermənistan adlandırılan, əslində isə Qərbi Azərbaycan olan ərazimizdə çox böyük alimlər, ziyalılar, elm xadimləri, pedoqoqlar, maarifçilər doğulub, yaşayıb-yaradıb. Qərbi Azərbaycan qızları bu sahədə də ciddi uğurlar əldə ediblər.

Professor Fərrux Rüstəmov yazır ki, IX əsrin sonu, XX əsrin əvvəllərində İrəvan şəhərində milli-mənəvi və maarifçilik mühiti digər müsəlman şəhərlərindən güclü olub. Həmin dövrdə İrəvanda təhsil və maarifçilik mühitinin inkişafı qızların ibtidai təhsillə yanaşı, həm də gimnaziyada oxumasına və ali təhsil almasına imkan verib. Hələ 1850-ci ildə İrəvanda fəaliyyətə başlayan Müqəddəs Pipsimi qadın məktəbində oxuyan qızların sayı ildən-ilə artırdı. Məktəbdə tatar (Azərbaycan) və şəriət dərslərini Seyid Molla Mir Mehdi tədris edib. İrəvanda azərbaycanlı qızların təhsilə cəlb olunmasında 1877-ci ildə xanım Stasyuleviç tərəfindən açılan Sofiya pansionu mühüm rol oynayıb. Pansion şəxsi təhsil müəssisəsi idi. 1877-ci ildə pansionda təhsil alan 105 şagirddən 58-i azərbaycanlı idi. Pansionda təhsil alanların 55,2 faizinin azərbaycanlı qızlardan ibarət olması və erməniləri üstələməsi o dövr üçün çox yüksək göstəricidir. Bu faktlar İrəvanda qızların təhsilinə verilən dəyərin nümunəsidir. İrəvanın yüksək təhsilli qızları çox olub və onlar xalqımızın həyatında mühüm rol oynayıblar. Biz vaxtaşırı olaraq Qərbi Azərbaycanın alim qadınları barədə yazılar təqdim edirik.

Bu qadınlardan biri də ədəbiyyatşünas, pedaqoq, tərcüməçi, publisist, filologiya elmləri namizədi Kövsər Tarverdiyevadır ki, onun barəsində Azərbaycançılıq məfkurəsi istiqamətində danışacağıq. Azərbaycan qadını, Azərbaycan anası özü Azərbaycançılığın əsas təbliğatçısı və yayıcısıdır. Bu ruhda böyüdülən hər bir övlad canı-qanı ilə bu torpağa, vətənə, dövlətə bağlı olur.

### Kimdir Kövsər Tarverdiyeva?

Kövsər Tarverdiyeva 14 iyul 1914-cü ildə İrəvanda Gedərçay üstündəki Dəmirbulaq məhəlləsində bağbanlıqla məşğul olan Məşədi Məmmədin ailəsində anadan olub. Uşaqlıq illəri bu bağ-bağatlı şəhərdə keçən Kövsər xanım o zaman bütün İrəvanda məşhur olan Haşım bəy məktəbində təhsil alır. IX sinfi bitirərkən onun qabiliyyətini nəzərə alaraq İrəvan Pedaqoji Texnikumunun sonuncu kursuna dəyişdirirlər. Pedaqoji məktəbi bitirdikdən sonra Kövsər xanım 1932-ci ildə Bakıya yollanır. Ailəlikcə Bakıya köçdükdən sonra pedaqoji fəaliyyətə başlayır və 1932-ci ildən fəhlə-gənclər məktəbində müəllimlik edir. Məlumatlara görə, Kövsər Tarverdiyeva 1937-ci ildən 1939-cu ilə qədər V.Lenin adına Azərbaycan Dövlət Pedoqoji İnstitutun Ədəbiyyat fakültəsinin dekanı vəzifəsində çalışıb. 1942-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda aspirantura təhsilini tamamlamışdır. 1942-1943-cü illərdə Azərbaycan SSR-i Təhsil Nazirliyində Kadrlar İdarəsinin rəisi vəzifəsində çalışmış. Daha sonra, 1948-ci ilə qədər Azərbaycan SSR Təhsil Nazirliyi Müəllimləri Təkmilləşdirmə İnstitutunun elmi-tədris işləri üzrə prorektoru vəzifəsində işləmişdir. Məlumatlara görə, 30 yaşında olarkən o tibb sahəsində təhsil almağa qərar verir və 1944-1949-cu illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika ixtisasında təhsil alır, lakin daha sonra həkim karyerasına davam etmir (cəmi il yarıma qədər həkim işləyib).



1948-ci ildən etibarən 55 il özünün ali təhsil aldığı Azərbaycan Dövlət Pedoqoji İnstitutunda (daha sonra Universitet) çalışıb. Kövsər Tarverdiyeva 2013-cü ildə Bakıda vəfat edib.

### Ədəbiyyat tarixini tədqiq edən türk qızı...

Dərin biliyi, zəkası və xalqına dərin bağlılığı ilə seçilən Kövsər xanım elm sahəsində özünəməxsus izlər qoyub. O 1952-ci ildə İrəvanda "Abovyan və Axundov" mövzusunda namizədlik dissertasiyasını erməni dilində müdafiə edərək filologiya elmləri namizədi adını alır. Həmin əsər 1958-ci ildə ayrıca kitab şəklində çap olunur. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi, Azərbaycan uşaq ədəbiyyatı və ədəbi əlaqələr mövzusunda mühazirələr oxumaqla yanaşı, elmi tədqiqatla ardıcıl məşğul olub. Azərbaycan, rus və erməni dillərində oxuduğu mühazirələr həmişə pedaqoji və elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilib. Tədqiqatçıların hazırladığı vikipediya məqaləsində qeyd edilir: "Elmi işinin mövzusu Azərbaycan-Ermənistan münasibətlərinin tarixinə həsr edildiyinə, işin yazıldığı dil isə erməni dili olduğuna görə danosbazlar o zamankı ölkə rəhbəri Mircəfər Bağırova gizli məlumat ötürdüyü iddia edilmişdir. Bağırov aravuranlara konkret cavab verib: "Türk qızı ermənilərin arasında erməncə alimlik dissertasiyası müdafiə edibsə, bunun özü bir namizədlik mövzusu olmalıdır". O, 100-dən çox elmi-kütləvi məqalələrinin, 8 kitab və monoqrafiyanın müəllifidir. Elmi-ədəbi fəaliyyətinə görə "Ali məktəb işçisi" fəxri adına, iki dəfə Azərbaycan SSRİ Ali Sovetinin Rəyasət heyətinin fəxri fərmanına layiq görülmüş, "Qafqazın müdafiəsinə görə" və "Əmək fəaliyyətinə görə" medalları ilə təltif olunubdur.

K.Tarverdiyeva kimi alimlər, Qərbi azərbaycanlılar Azərbaycan tarixinin, ədəbiyyatının, mədəniyyətinin gözəlliyini, unikallığını başqa xalqlara çatdırmaqla böyük xidmətlər göstəriblər. Azərbaycançılığın fikir beşiklərindən olan tarixi Azərbaycan şəhəri İrəvan yetişdirdiyi böyük şəxsiyyətlərlə vahid ideologiyamıza mühüm töhfələr verib.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**